# Orta və kiçik sahibkarlığın inkişafı Azərbaycanın sənaye potensialını daha da gücləndirəcək

## ***Prezident İlham Əliyev:*** *Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, orada iqtisadi potensialı müəyyən edən orta və kiçik sahibkarlardır. Biz də bu yolla getməliyik və sahibkarlığın inkişafı üçün əlavə tədbirlər görüləcəkdir*

*Bir sıra mənfi tendensiyalarla müşayiət olunan indiki şəraitdə hədəflərin düzgün müəyyənləşdirilməsi, yeni sahələrə diqqətin artırılması iqtisadiyyatı neft amili ilə bu və ya digər dərəcədə bağlı olan ölkələrdə inkişafın ardıcıllığının təmin olunması üçün müstəsna əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın nümunəsi təqdirəlayiqdir. Belə ki, ölkəmiz düşünülmüş, məqsədyönlü siyasət sayəsində öz güclü potensialına əsaslanaraq bütünlüklə postneft dövrünün iqtisadiyyatının qurulmasına istiqamətlənib. Respublikamızda ənənələr qorunmaqla bir sıra yeni istiqamətlər müəyyənləşdirilib və hazırda həmin istiqamətlərdə istehsal imkanlarının genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görülür. Ölkəmiz yeni şəraitdə iqtisadiyyatın neftdənkənar sahələrinin üstün inkişafının təmin olunmasına diqqəti artırmaqla, bir tərəfdən, müxtəlif mallara olan daxili istehlakı tam şəkildə yerli istehsal hesabına təmin etmək, digər tərəfdən isə, xarici bazarlarda Azərbaycan brendi olan məhsullarla təmsil olunmaq və bu yolla neft daxilolmalarının azalmasını kompensasiya etmək məqsədi güdür. Adaptasiya prosesinin uğurla getməsi və əldə olunan nəticələr Azərbaycanın yeni inkişaf kursunun uğurlu olacağını söyləməyə əsas verir.*



### SƏNAYE İSTEHSALININ GENİŞLƏNDİRİLMƏSİ AZƏRBAYCANIN GƏLƏCƏK İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİNİ TƏŞKİL EDİR

Yeni iqtisadi şəraitdə ölkəmizin davamlı inkişafını təmin etmək üçün müəyyənləşdirilən istiqamətlərdən biri sənaye istehsalının genişləndirilməsi ilə bağlıdır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində vurğulayıb ki, Azərbaycanda çox güclü sənaye kompleksi yaradılacaqdır. Ölkəmizin sənaye quruculuğu ilə bağlı qarşıya qoyduğu hədəflərə xüsusi diqqət çəkən Prezident İlham Əliyev bildirib: **"Sənaye potensialımızın inkişafı əsas prioritet məsələlərdən biridir. Bu il və növbəti illərdə bu sahəyə diqqət göstəriləcək"**.

Ölkəmizdə yeni iqtisadi şəraitdə sənaye sektorunun gələcək inkişafın prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi təsadüfi deyil. Azərbaycanın iqtisadi potensialı elədir ki, burada həm ənənəvi neftçıxarma və neft emalı sənayesini yeni texnologiyalar əsasında daha da inkişaf etdirmək, eyni zamanda, yeni qlobal çağırışlara uyğun olaraq müasir sənaye sahələri yaratmaq mümkündür. Müstəqil Azərbaycanın sənaye quruculuğu siyasəti də məhz ənənələri saxlamaqla yanaşı, dünyanın müasir trendlərini özündə ehtiva edən yeni sənaye sahələrinin və istehsalatların yaradılmasına istiqamətlənib. Ölkəmizdə uğurla həyata keçirilən sənayeləşmə siyasəti artıq öz bəhrəsini verir. Son illərdə respublikanın potensialından səmərəli istifadə olunması və davamlı dövlət dəstəyi sayəsində sənaye quruculuğu sahəsində diqqətəlayiq uğurlara nail olunub. Ümumiyyətlə, son 12 ildə Azərbaycanda sənaye istehsalının 2,7 dəfə artması ölkəmizin müasir mənzərəsini səciyyələndirir. Bəhs olunan dövrdə respublikanın müxtəlif regionlarında 70 mindən çox müəssisə fəaliyyətə başlayıb. Təkcə güzəştli kreditlər hesabına ümumi dəyəri 730 milyon manat olan 100-dən artıq sənaye layihəsi maliyyələşdirilib. Əlamətdar haldır ki, ölkəmizdə sənayeləşmə siyasəti ildən-ilə daha geniş vüsət alır. 2015-ci ildə respublikamızda 270-dək sənaye müəssisəsi açılıb. Bütövlükdə il ərzində ölkədə sənaye məhsulu istehsalı 2,4 faiz artıb. Sənaye sektorunda inkişaf tendensiyası 2016-cı ilin arxada qalan dövrü ərzində də qorunub saxlanılıb. Respublikamızda qeyri-neft sənayesinin inkişaf dinamikasının daha yüksək olması xüsusilə diqqətəlayiqdir. Belə ki, cari ilin birinci yarısında ölkəmizdə qeyri-neft sənayesi 2,4 faiz artıb ki, bu da olduqca müsbət göstəricidir. Prezident İlham Əliyev respublikamızın qeyri-neft sənayesində gələcəkdə daha böyük artıma nail olunacağına əminliyini ifadə edib: **"Ölkəmizin qeyri-neft sənayesi 2,4 faiz artıb. Bu, çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümidlər verir"**.

*"Ölkəmizin qeyri-neft sənayesi 2,4 faiz artıb. Bu, çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümidlər verir"*

Prezident İlham Əliyev qeyd edib ki, sənaye istehsalı ilə bağlı həm iri layihələr icra edilir və eyni zamanda, orta və kiçik sahibkarlığın inkişafı sənaye potensialımızı daha da gücləndirəcəkdir. İri layihələr arasında Sumqayıt Kimya Sənaye Parkında həyata keçirilən layihələri xüsusi qeyd etmək mümkündür. Burada SOCAR Polimer kompleksinin tikintisinə böyük məbləğdə investisiya - təqribən 700 milyon dollardan çox sərmayə yönəldilir. Müəssisənin iki ildən sonra məhsul istehsalına başlayacağı proqnozlaşdırılır. Polimer kompleksinin işə düşməsi sayəsində respublikamızın yeni ixrac imkanları yaranacaq. Eyni zamanda, 2018-ci ildə azot gübrələri zavodunun istismara verilməsi planlaşdırılır. Yeni müəssisədə buraxılan məhsullar həm daxili tələbatı ödəyəcək, həm də xarici bazarlara çıxarılacaq.

*"Biz indi çox güclü qeyri-neft ixracı potensialı yaradırıq və eyni zamanda, institusional tədbirlər də görülür və görülməlidir ki, biz ixracı stimullaşdıraq, sahibkarlar xaricə daha çox məhsul satmaqda maraqlı olsunlar"*

### ÖLKƏDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN DƏSTƏKLƏNMƏSİ SƏNAYE İNKİŞAFINA YENİ TƏKAN VERƏCƏK

Müasir inkişaf yolu tutan Azərbaycan bütün sahələrdə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə istinad edir. Bu cəhətdən ölkəmizdə həyata keçirilən yeni iqtisadi kurs da istisna deyildir. Məlumdur ki, dünyanın qabaqcıl ölkələrində iqtisadiyyat əsasən kiçik və orta sahibkarlığın dəstəklənməsi hesabına inkişaf edir. Həmin ölkələrin istehsalının əsasında məhz özəl müəssisələrdə buraxılan müxtəlif növ məhsullar dayanır. Prezident İlham Əliyev ölkəmizin də bu yolla gedəcəyini bildirib: **"Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, orada iqtisadi potensialı müəyyən edən orta və kiçik sahibkarlardır. Biz də bu yolla getməliyik və sahibkarlığın inkişafı üçün əlavə tədbirlər görüləcəkdir"**.

Azərbaycanda yeni iqtisadi şəraitdə də müsbət ab-havanın qorunub saxlanılması, sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi bir sıra amillərlə şərtlənir ki, bunların da içərisində ölkəmizdə özəl bölmənin inkişafının davamlı şəkildə dəstəklənməsi mühüm yer tutur. Zamanında iqtisadiyyatın neftdənkənar sahələrinin, o cümlədən də özəl bölmənin inkişafının stimullaşdırılması bu gün etibarlı platforma qismində çıxış edərək ölkəmizin yeni qlobal çağırışlara yüksək dayanıqlılığına möhkəm təminat yaradır.

Qeyd edək ki, son 12 ildə sahibkarlığın, özəl sektorun inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birini təşkil edib və bu sahədə fundamental baza yaradılıb. Respublikamızda qeyri-neft sektorunda xüsusi çəkiyə malik özəl bölmənin inkişafı məqsədyönlü şəkildə stimullaşdırılır və geniş təşviq olunur. Dövlət bu sahənin inkişafına həm siyasi, həm də maddi dəstək verir. Respublikamızda özəl bölmənin inkişaf etdirilməsi məqsədilə özəlləşdirmə həyata keçirilib, ayrıca proqramlar qəbul edilib, hüquqi-qanunvericilik bazası möhkəmləndirilib. Ölkədə sahibkarlığın inkişafının təşviq edilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu təsis edilib. Prezident İlham Əliyevin 2014-cü il martın 3-də imzaladığı "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərman özəl bölmənin yeni mərhələsinin hüquqi təminatlarını özündə əks etdirir. Sahibkarlıq subyektlərinin maliyyə təminatının gücləndirilməsi ölkədə özəl bölmənin inkişafında xüsusi rol oynayır. Qeyd edək ki, son 12 ildə respublikamızda sahibkarlara 1,7 milyard manat həcmində güzəştli kreditlər verilib. Cari ildə ayrılacaq vəsaitlər hesabına özəl bölmənin inkişafına yönəldilən kreditlərin həcmi 2 milyard manata çatacaq. Əlamətdar haldır ki, özəl bölməyə ayrılan vəsaitlərin təxminən 77 faizi qaytarılan kreditlər hesabına formalaşır ki, bu da özlüyündə müsbət göstəricidir və sahibkarların dövlətin onlara göstərdiyi maddi dəstəkdən səmərəli istifadə etdiklərini təsdiqləyir. Beləliklə, dövlət büdcəsinə düşən yük getdikcə azalır.

Təbii ki, hər dövrün spesifik cəhətləri var. Qlobal mənfi təsirlər nəticəsində yaranan mövcud iqtisadi şərait də özəl bölmənin inkişafı ilə bağlı həyata keçirilən siyasətə və sahibkarlıq subyektlərinə göstərilən dəstək tədbirlərinə yeni yanaşma tələb edir. Bu baxımdan yeni iqtisadi şəraitdə ölkəmizdə sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən islahatlar xüsusilə diqqəti cəlb edir. Prezident İlham Əliyevin ölkədə yaranmış yeni şəraitdə biznes mühitinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə vergi bazasının genişləndirilməsi yolu ilə sahibkarların vergi yükünün azaldılması, qeyri-formal iqtisadiyyatın leqallaşdırılması ilə bağlı müəyyənləşdirdiyi hədəflər xüsusi aktuallıq kəsb edir. Dövlət başçısının ölkədə biznes mühitinin yaxşılaşdırılmasına hesablanan başqa bir tələbi gömrük rəsmiləşdirilməsinin və bütün idxal-ixrac əməliyyatlarının tam şəffaf aparılması, inhisarçılığın qarşısının alınması ilə bağlıdır. Bundan başqa, Prezident İlham Əliyevin siyasi iradəsi əsasında sahibkarlıq subyektlərində yoxlamalar 2 il müddətinə dayandırılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinə və "Elektron lisenziya" portalının yaradılmasına başlanılıb.

*"Əgər lazım olarsa, tezliklə dövlətin dəstəyi ilə bir çox kiçik və orta müəssisələr yaradılmalıdır ki, onlar Azərbaycanda hazır məhsul istehsal etsinlər"*

Respublikamızda özəl bölməyə göstərilən dövlət dəstəyi bu sahədə diqqətəlayiq uğurların əldə olunması ilə nəticələnib. Son 12 ildə respublikamızda məşğulluqda və vergi daxilolmalarında özəl bölmənin çəkisi 70 faizi ötüb. Ölkəmizdə sahibkarlıq subyektlərinin sayı 2004-cü illə müqayisədə 2,5 dəfə artaraq 386 minə çatıb.

Ölkədə kiçik və orta sahibkarlığın dəstəklənməsi həmçinin sənaye istehsalının genişlənməsində mühüm rol oynayır. Hazırda özəl sahibkarlıq subyektlərinin investisiyaları hesabına yaradılan sənaye müəssisələri uğurla fəaliyyət göstərir. Respublikamızda kiçik və orta sahibkarlar tərəfindən çoxlu sayda emal sənayesi müəssisəsi qurulub. Özəl bölmədə yaradılan sənaye obyektləri respublikanın tikinti materiallarına olan tələbatının ödənilməsində müstəsna rol oynayır. Əlamətdar haldır ki, kiçik və orta sahibkarlar regionlarda da böyük fəallıq nümayiş etdirərək bölgələrdə regional sənaye quruculuğunda fəal iştirak edirlər.

### TEXNOPARKLARIN YARADILMASI RESPUBLİKADA HƏYATA KEÇİRİLƏN MÜASİR SƏNAYE QURUCULUĞUNUN MÜHÜM ƏLAMƏTİDİR

Kiçik və orta sahibkarların fəal iştirakı ilə texnoparkların yaradılması Azərbaycanda həyata keçirilən müasir sənaye quruculuğunun mühüm əlamətidir. Qeyd edək ki, respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq texnoparkların yaradılması istiqamətində uğurlu addımlar atılıb və ilk texnoparklarda məhsul istehsalına start verilib. Sumqayıtda 167,66 hektar ərazidə yaradılan Kimya Sənaye Parkının ölkəmizin kimya sənayesinin inkişafında və bu sahədə ixrac potensialının artırılmasında əhəmiyyətli rolu olacaq. Artıq burada fəaliyyət göstərən rezidentlər tərəfindən polad və polietilen boruların istehsalına başlanıb, həmçinin yüksək təzyiqə davamlı hidrotexniki avadanlıqların, polipropilen və yüksək sıxlıqlı polietilenin istehsalının təşkili işləri həyata keçirilir.

*"Sənaye potensialımızın inkişafı əsas prioritet məsələlərdən biridir. Bu il və növbəti illərdə bu sahəyə diqqət göstəriləcək"*

Balaxanı Sənaye Parkında qeydiyyata alınmış rezident şirkətlər tərəfindən isə tullantı yağlarından 120 adda müxtəlif növ məhsul istehsalının və plastik məmulatların təkrar emalının təşkilinə başlanılıb. Şəmkir rayonunda Zəyəm Texnologiyalar Parkının fəaliyyəti ölkəmizdə ənənəvi sənaye sahələri ilə yanaşı, yeni istiqamətlərin də uğurlu inkişafına daha bir nümunədir. Zəyəm Texnologiyalar Parkı ASC-nin əsas fəaliyyəti neft çənlərinin, metro tunellərinin tikintisində istifadə olunan əyri metal təbəqələrin, qalın boruların, yeraltı və yerüstü çənlərin, habelə böyük qabaritli metal konstruksiyaların, istilik qazanlarının, qaldırıcı qurğuların, müxtəlif təyinatlı kənd təsərrüfatı texnika və avadanlıqlarının, müasirtipli istixana komplekslərinin metal konstruksiyalarının istehsalından ibarətdir. Qeyd edək ki, ötən dövrdə Zəyəm Texnologiyalar Parkı ASC-də istehsal olunan məhsullar həm daxili, həm də xarici bazarlara - Türkiyə və Polşaya ixrac edilib. Hazırda isə Mingəçevirdə "Yüksək Texnologiyalar Parkı"nın yaradılması istiqamətində işlər davam etdirilir. Prezident İlham Əliyevin Fərmanı ilə Mingəçevir şəhərində 1,3 hektar torpaq sahəsində "Yüksək Texnologiyalar Parkı"nın yaradılması qərara alınıb. Park innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin tətbiqi üzrə işləri həyata keçirəcək.

### ÖLKƏDƏ SƏNAYE İSTEHSALININ GENİŞLƏNMƏSİ ÜÇÜN ZƏRURİ OLAN AMİLLƏRDƏN BİRİ DƏ İXRACIN STİMULLAŞDIRILMASIDIR

Yuxarıda vurğuladığımız kimi, Azərbaycan kiçik və orta sahibkarlığın dəstəklənməsi hesabına sənaye quruculuğunun genişlənməsinə böyük diqqət yetirməklə həm də özünün ixrac imkanlarını artırmaq məqsədi güdür. Son illərdə sənayenin inkişaf etdirilməsi tədbirləri və müasir sənaye müəssisələrinin yaradılması nəticəsində ölkəmizin yeni ixrac imkanları yaranıb. Qeyd edək ki, ötən il respublikamızdan qeyri-neft məhsullarının ixracı 4 faizədək artaraq 1,5 milyard dolları ötüb. İl ərzində Azərbaycan ixrac etdiyi məhsulların çeşidini 2014-cü illə müqayisədə 15 faizədək artıraraq xarici ölkələrə 2391 adda məhsul satıb ki, bunların da sırasında sənaye malları xüsusi çəkiyə malikdir. Prezident İlham Əliyev hazır məhsul istehsalının genişləndirilməsi üçün dövlət dəstəyi hesabına kiçik və orta müəssisələr yaradılmasının zəruriliyini diqqətə çatdıraraq bildirib: **"Əgər lazım olarsa, tezliklə dövlətin dəstəyi ilə bir çox kiçik və orta müəssisələr yaradılmalıdır ki, onlar Azərbaycanda hazır məhsul istehsal etsinlər"**.

Ölkədə özəl bölmənin dinamik inkişafı sayəsində qeyri-neft məhsulları ixracı potensialının artması paralel şəkildə ixracın stimullaşdırılması, bu məqsədlə müvafiq tədbirlər görülməsi zərurətini gündəmə gətirib. Son vaxtlarda müvafiq qurumlar tərəfindən bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilir. Təkcə ötən il bu istiqamətdə AZPROMO tərəfindən 177-si Azərbaycanda, 84-ü isə xarici ölkələrdə olmaqla 261 tədbir təşkil olunub. Yerli və xarici iş adamlarının iştirak etdiyi tədbirlərdə ölkəmizin investisiya imkanları təqdim olunub, Azərbaycan istehsalı olan məhsulların ixracı təşviq edilib, xarici tərəfdaşlarla ixraca dair müqavilələr imzalanıb.

Məlum qlobal kataklizmlər fonunda yaranan yeni iqtisadi şərait isə ölkəmizdə buraxılan qeyri-neft məhsullarının ixracının daha geniş və səmərəli şəkildə təşviq edilməsi zərurətini gündəmə gətirib. Elə bir şərait yaradılmalıdır ki, sahibkarlar öz məhsullarını sərbəst şəkildə xarici bazarlara çıxara bilsinlər. Bununla bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev bildirib: **"Biz indi çox güclü qeyri-neft ixracı potensialı yaradırıq və eyni zamanda, institusional tədbirlər də görülür və görülməlidir ki, biz ixracı stimullaşdıraq, sahibkarlar xaricə daha çox məhsul satmaqda maraqlı olsunlar"**.

Hazırda ölkəmizdə ixracın təşviqinin hüquqi bazası möhkəmləndirilir. Prezident İlham Əliyev qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında müvafiq Fərman imzalayıb. Qeyd olunan Fərmanda 2016-2020-ci illərdə Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Fərmana əsasən, Azərbaycan Respublikasının ərazisində istehsal olunan və istehsal prosesində istifadə olunan yerli komponentlərin və Azərbaycan Respublikasının ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq, Azərbaycan Respublikasının ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi nəzərdə tutulur.

**Mübariz ABDULLAYEV**